# mr.Seal Tek®

## Sement əsaslı, polimer qarışıqlı, tək komponentli su izolyasiya materialı
Məhsul kodu: 30.20.001




### Məhsul haqqında
**mr. Seal Tek®** sement əsaslı, polimer qarışıqlı, sızanaq və təzyiqsiz səth sularına qarşı beton pərdə və sement əsaslı suvaqlar üzərinə daxildən ya da xaricdən tətbiq olunan, tək komponentli izolyasiya materialıdır.

### İstifadə sahələri
- Daxili və xarici yerlərdə, şaquli və üfiqi səthlərdə
- Bünövrənin yalıtımı
- Bənd divarlarında
- Su anbarlarında
- Tualet, hamam, mətbəx və balkon kimi binanın bütün sulu həcmlərində
- Kiçik terraslarda
- Kiçik üzgüçülük hovuzlarında və bəzək hovuzlarında su izolyasiya materialı olaraq istifadə olunur.

### Texniki göstəriciləri

| Materialın tərkibi | Mineral dolğular, polimer modifiyeli qatqılar və xüsusi sement tərkibli |
|---|---|
| Rəngi | Boz |
| Qopma müqaviməti | ≥1, 00 N/mm² |
| Təzyiqli suya davamlılığı | 0,50 bar (müsbət) |
| Tətbiq olunacaq səthin istiliyi | +5°C +25°C |
| Xidmət istiliyi | -20°C +80°C |
| Tamamlanma müddəti | 3-5 dəqiqə |
| İstifadə müddəti | 2 saat (+20°C-də) |
| İstifadəyə verilməsi<br>Mexanik davamlılıq<br>Su keçirməməzliyi | <br>2 gün<br>7 gün |
| Üzərinin örtülməsi<br>Suvaq ilə<br>Keramika ilə | <br>3 gün<br>3 gün |
| Qarışığın sıxlığı | ~ 2,03 kq/litr |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri
- Asan hazırlanır və tətbiq olunur
- Fırça, mala və ya püskürtmə aləti ilə tətbiq oluna bilər
- İşləmə müddəti uzundur.
- Su keçirməyən xüsusiyyəti olsa da buxar keçirmə xüsusiyyətinə malikdir
- Büzülməz, çatlamaz
- Donma-ərimə prosesinə davamlıdır

### İstifadə təlimatı
Səthin hazırlanması;
Tikintilərin su ilə təmas edən sement əsaslı səthlərinin sağlam, quru, təmiz, tozsuz və daşıyıcı olmasına diqqət edilməlidir. Səth yapışmanı zəiflədəcək bütün yağ, pas, sürtgü yağı və parafin qalıqlarından təmizlənməli və səthdə artıq qırıntılar olmamalı. Səthdəki artıq dəmir və taxta parçaları çıxarılıb boşluqlar mr.Tamir® ilə təmir edilməli, künc və kənarlar ən az 4 sm radiusunda düzəldilməlidir.Tətbiq səthi su ilə isladılaraq suya doyurulmalı, lakin səthdə artıq su qalmamalıdır. Tətbiq zamanı material suyunu itirər və tutqun bir görünüş alarsa, səthin yetərincə isladılmadığına ya da sürətli quruduğuna işarədir. Belə olduqda, havanın isti olduğu ya da materialın külək təsirində olduğu vəziyyətlərdə yalnız ilk qat üçün materialın qarışdırma suyu 10% artırıla bilər. Hər bir qat sürtülmədən öncə altdakı katın quruması gözlənilir. Qatlar bir-birinə əks istiqamətdə sürtülür.

### Hazırlanması
İstifadə olunacaq su təmiz bir qaba doldurulur və həmin qaba mr.Seal Tek® yavaş-yavaş əlavə edilərək 400-600 dövr/dəq-lik bir mikserlə 3-5 dəqiqə, düyünlər həll olunana qədər qarışdı-

rılır. Təxminən 3-5 dəqiqə dincəlməyə qoyulduqdan sonra təkrar 30 saniyə qarışdırılaraq məhsul istifadəyə hazır hala gətirilir.

## Qarışdırma nisbəti

| | |
|---|---|
| 1 kq toz üçün | ~0,23 litr |
| 20 kq toz üçün | ~4,60 litr |

## Sərfiyyat

| | |
|---|---|
| 1-ci qat | 1,50 kq/m$^2$ toz məhsul |
| 2-ci qat | 1,30 kq/m$^2$ toz məhsul |
| 3-cü qat | 1,20 kq/m$^2$ toz məhsul |

## Alətlərinin təmizlənməsi

İstifadə edilən alət ləvazimatlar isti su və sabunla təmizlənməlidir. mr. Seal Tek® sərtləşdikdən sonra ancaq mexanik üsullarla səthdən təmizlənə bilər.

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 20 kq ±2%**

K-Q TSE-ISO-EN 9000

AZS